AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 50-62
https://doi.org/10.59849/2664-5432.2026.2.50

T**ofiq HACIYEV***

SÖZÜN TƏRKİBİ VƏ SÖZ YARADICILIĞI

X Ü L A S Ə

Cəmiyyət inkişaf etdikcə və insan dünya sirrinə daha çox vaqif olduqca təbii proses olaraq dilin lüğət tərkibi də zənginləşir. Lakin istər morfoloji, istər sintaktik yolla söz yaradıcılığı təkcə yeni sözlərin yaradılması ilə deyil, həm də bu yolla sözdə emosional-hissi çalarların formalaşdırılması ilə səciyyələnir. Belə ki, sadə və ya düzəltmə sözlərin təkrarı ilə yaranan sözlərin bir qismində tam yeni söz yaranırsa, digər qismində əvvəlki məna qalmaqla çalar fərqi özünü göstərir.

Söz yaradıcılığının əsas üsullarından olan şəkilçi ilə yeni sözlərin yaradılması qədim tarixə malik olub, dilin tarixi inkişaf prosesində mürəkkəb forma almışdır. Müasir dilimizdə olan bir sıra sözlərin yaradıcılıq üsulu və tərkibi ilə bağlı problem məsələlər vardır. Əsas məsələlərdən biri düzəltmə quruluşlu bir sıra sözlərin kök və şəkilçi komponentlərə ayrıla bilməsindəki çətinlik—anlaşılmazlıqdır. Bunun əsas səbəbi tarixən müəyyən şəkilçi ilə yeni söz yaradıdıqdan sonra yeni leksik şəkilçinin artırılması ilə yaranan sözün tərkib komponentlərinə ayırmaqda olan qeyri-dəqiqlikdir. Burada isə əsas səbəb kökün birinci şəkilçidən sonra yaranan sözün bugün dilimizdə işlək olmamasıdır. *"Araşdırmaq, əzişdirmək, növbətçi, gözətçi"* və s. bu tipli sözlərin tərkib komponentlərinə ayırmaqda mübahisəli fikirlər hökm sürür.

Xüsusilə feilin -ər şəkilçisi qəbul etdikdən sonra müxtəlif səpkili leksik şəkilçilərin artırılması ilə yaranan problem diqqət çəkir. "*Düşərgə, dönərgə, çimərlik"* və s. sözlərdə bu problem meydana çıxır.

Bu halların təhlili tarixi və müasir faktların qarşılaşdırılması yolu ilə olmalıdır; yəni bu sözlərdə *-ərgə, -ərlik* kimi şəkilçilərin ayrılması düzgün deyil, ona görə ki, şəkilçi tam motivləşməli, digər sözlərin yaradılmasında birbaşa iştirak etməlidir.

Açar sözlər: *söz yaradıcılığı, düzəltmə söz, mürəkkəb söz, qrammatik şəkilçi, leksikləşmə.*

Dilin əsas vahidlərindən olan söz quruluşca sadə, düzəltmə və mürəkkəb olur. Düzəltmə söz bir kök, bir və ya bir neçə leksik şəkilçidən ibarət olur. Mürəkkəb sözdə isə iki və ya daha çox kökün olması vacibdir. Mürəkkəb sözün tərkibində leksik şəkilçilər ola da bilər, olmaya da bilər. Məlumdur ki, leksik şəkilçi yeni sözün yaradılmasında iştirak edir. Lakin bu fikir dilçiliyimizdə birbaşa düzəltmə sözlərə şamil edilir, yəni kökə və ya düzəltmə sözə leksik şəkilçi artırmaqla yeni söz yaranır. Məsələn, *yaz—yazı—yazıçı—yazıçılıq* və s.

* Bakı Dövlət Unuversiteti, professor.

Mürəkkəb sözlərdə leksik şəkilçilərin mövcudluğu müxtəlif səbəblərdəndir. Birinci hal ondan ibarətdir ki, sadə və düzəltmə sözlər, yaxud da düzəltmə sözlər birləşib mürəkkəb söz yaradır. Məsələn: *enli+kürək, üç+bucaqlı, açıq+ürəkli, enli+kürəkli* və s.

Lakin mürəkkəb sözlərin formalaşmasında qrammatik şəkilçinin rolundan da bəhs olunur. Məsələn, *yolüstü, başıbəlalı, başabəla* və s. Göründüyü kimi, birinci mürəkkəb sözün ikinci komponenti mənsubiyyət şəkilçisi ilə, ikinci sözün birinci komponenti mənsubiyyət şəkilçisi ilə, üçüncü sözün birinci komponenti isə yönlük hal şəkilçisi ilə işlənmişdir. Dilçilikdə leksik şəkilçinin qrammatik şəkilçiyə, qrammatik şəkilçinin isə leksik şəkilçiyə keçid prosesindən də bəhs olunur. Lakin bu tip mürəkkəb sözlərin hamısına həmin fikri şamil etmək olmaz.

Hər şeydən əvvəl demək lazımdır ki, hər iki proses məhz sintaktik zəmində baş verir. Dilin sintaktik qatı elə bir sahədir ki, dilin funksionallığı məhz burada özünü göstərir. Bu baxımdan müxtəlif leksik və qrammatik vahidlərdə keçid, yaxud dəyişmə prosesləri, bir qayda olaraq, bu zəmində baş verir. Yuxarıda verdiyimiz mürəkkəb sözlərdə qrammatik şəkilçilərin varlığı onların ayrılıqda leksik vahid kimi formalaşmasında rol oynamır. Əslində söz birləşməsi olan ifadənin zaman-zaman motivləşməsi, tərkibindəki sözlərin əlaqələrinin daha da möhkəmlənməsi və fonetik cəhətdən birikməsi nəticəsində söz birləşməsi daşlaşmış formada mürəkkəb sözə çevrilir. Əslində bi söz birləşmələrinin mürəkkəb sözə çevrilməsi təfəkkür və dilin qarşılıqlı əlaqəsində gedən interaktiv təsir nəticəsində həm linqvistik, həm dilxarici təsirlər nəticəsində baş verir. Belə ki, bu birləşmələrin nitqdə intensiv işlədilməsi, intonasiya bütövləşməsi nəticəsində dilə yatımlı olması komponentlərin fonetik-semantik cəhətdən birikməsini təmin edir. Bundan sonra bu struktur-semantik əsasda digər mürəkkəb sözlər formalaşır.

Verilmiş mürəkkəb sözlərin hər biri ayrı-ayrı sərbəst söz birləşməsi növlərindən yaranmışdır; birincisi ikinci növ təyini söz birləşməsi, ikincisi və üçüncüsü təyini söz birləşməsinə daxil olmayan müxtəlif səciyyəli birləşmələrdən təcrid olunmuşdur. Onu da qeyd edək ki, bu yolla yaranan mürəkkəb sözlər daha müxtəlif söz birləşmələri növlərindən təcrid yolu ilə yaranmışdır. Deməli, söz birləşməsinin mürəkkəb sözə çevrilməsi zamanı qrammatik şəkilçi daşlaşmış kimi olur və bu presesdə iştirak etmir.

Demək lazımdır ki, söz birləşməsi əsasında yaranan bir sıra mürəkkəb sözlərdə qrammatik şəkilçi olmur, yəni onlar, əsasən, birinci növ təyini söz birləşməsindən təcrid olunur. Məsələn: *boşqab, qaratoyuq, üçulduz* və s. Bunlar da ilk olaraq sərbəst söz birləşmələrinin mürəkkəb sözə çevrilməsi yolu ilə yaranmışdır. Birinci növ təyini söz birləçməsi şəkilçisiz formalaşdığı üçün onlardan təcrid olunan mürəkkəb sözlərdə də qrammatik şəkilçi yoxdur.

Bununla yanaşı, ümumilikdə qrammatik şəkilçinin yeni söz yaradıcılığında bu və ya digər şəkildə iştirakını qəbul etmək lazımdır. Birincisi, *-lar, -lər* cəm şəkilçisi zaman-zaman terminoloji funksiya daşıyan sözlərin yaranmasında iştirak etmişdir; *cütdırnaqlılar, təknüvəlilər* tipli sözlər məhz bitki fəsilələrinin adlarını

bildirmək üçün yaranmışdır. "*Ağlar, qırmızılar"* sözləri də bir vaxt bu yolla yaranmışdır. İkincisi, mənsubiyyət şəkilçisi leksik vahid yaradaraq bu məqamda leksik şəkilçinin funksiyasını həyata keçirir. Məsələn: *biri, kimi* əvəzlikləri. Bu qəbildən başqa şəkilçiləri də misal göstərmək olar. Bununla yanaşı, bu sözlərə yenidən eyni mənsubiyyət şəkilçisini artırıb yeni leksik vahid kimi təqdim etmək elmi əsasa söykənmir. "*Kimisi, birisi"* sözlərində ikinci mənsubiyyət şəkilçisi yeni söz yaratmır, sadəcə, intensivlik yaradan vasitə kimi çıxış edir. Yada salaq ki, xalq dilində "*tezdən*" sözü bir çox halda "*tezdəndən" [tezdənnən]* şəklində tələffüz edilir. Ümumiyyətlə, eyni vahidin belə hallarda təkrarlanması intensivliyə xidmət edir ki, bu hal dilin bütün səviyyələrində özünü göstərir. Məsələn *qızıl-qırmızı, sağ-salamat* və s. Bu tip sözlər qrammatika əsərlərində yaxın mənalı sözlərin birləşməsi nəticəsində yaranan mürəkkəb sözlər kimi təqdim edilir. Əslində isə bu tip sözlər yeni anlayış yaratmır, eyni mənanın intensivlik bildirən formasıdır.

Demək lazımdır ki, əksər halda eyni sözün təkrarı ilə yaradılan sözlər yeni məna yaratmır, onlar əsas etibarilə eyni mənanın imtensiv məzmununu formalaşdırmaqla yanaşı, qrammatik çoxluq anlayışının da meydana çıxmasını şərtləndirir. Məsələn, *"gözəl-gözəl uşaqlar, hündür-hündür binalar? dadflı-dadlı yeməklər"* və s. birləşmələrin ikinci komponentini cəm şəkilçisiz işlətmək olmaz. Bu ifadələrin heç birində birinci komponentlərin leksik-semantik mənası dəyişmir.

Bu tip təkrar sözlərin elələri də var ki, ayrı-ayrı məqamlarda fərqli semantik-funksional məna daşıyır. Məsələn, "*yaxşı"* sözünün bir neçə məna və ya çaları qeyd edilir: 1.müsbət xüsusiyyətlərə və ya keyfiyyətlərə malik olan; öz keyfiyyəti ilə verilən tələbləri təmin edən, lazımi qaydada olan, bəyənilən; 2.kifayət qədər, lazımınca, əməlli-başlı;… 4.salamat, itkisiz, zərərsiz; 5."yaxşı", "razıyam","sən deyən olsun" mənalarında razılıq bildirir; 6."yadda saxla", "çox əcəb", "baxıb görərsən" və s. mənalarda hədə bildirir…" [Azərbaycan dilinin izahlı lüğəti, 2006, IV c.s.509-510]. "*Yaxşı-yaxşı"* sözünə isə belə izah verilir: 1.yaxşı (topluluq mənasında); 2.dərindən, ətraflı, diqqətlə, lazımınca, əməlli-başlı" [Azərbaycan dilinin izahlı lüğəti, IV c.s.511]. Göründüyü kimi, "*yaxşı"* sözünün leksik-semantik əhatə dairəsi "*yaxşı-yaxşı"* sözündən dəfələrlə çoxdur. Bunun əsas səbəbi söz sayının çoxluğu nəticəsində mənanın daha konkretləşməsidir.

Bu xüsusiyyət bütün nitq hissələri səviyyəsində özünü göstərir. "*Bir"* sözü say və ədat kimi dilimizdə fəal işləkliyə malikdir: 2.Say kimi—Küçənin başında bir bina tikildi; 2.Ədat kimi—*Uşaqlar bir sevinirdilər ki, sanki bütün dünya onların idi. "Bir"* sözü söz yaradıcılığında da çox məhsuldardır; istər düzəltmə, istərsə də mürəkkəb sözlərin yaranmasında bu söz fəaldır: *biri, birdən, arabir, birtəhər* və s. Bu söz təkrar şəklində də yeni söz yaradır: *bir-bir*. Bu sözün daxili məzmununda say məzmunu olsa da (ümumiyyətlə, istənilən düzəltmə və mürəkkəb sözlərdə kökün mənası bu və ya digər şəkildə qalır), "*bir-bir*" sözünü say hesab etmək olmaz. Bəzən dilçiliyimizdə bu fikrin əksi ilə qarşılaşırıq. *"Bir-bir"* sözü tərzi-hərəkət zərfidir. M.Hüseynzadə "*bir-bir"* sözünü miqdar sayının içərisində versə də, onun müxtəlif məzmun bildirdiyini qeyd edir. [Hüseynzadə:1963, s.110;

Hüseynzadə:1973, s.111; Hüseynzadə: 2007, s.89]. Lakin müəllif mürəkkəb zərflər içərisində "*bir-bir"* sözünü verməmişdir. Q.Kazımov [Kazımov:2010, s.320], B.Xəlilov [Xəlilov: 2007, s.288], Rəhimova B. [Rəhimova:1961, s.97] və başqaları "*bir-bir"* sözünü sayın təkrarından yaranan zərf kimi təqdim edirlər.

Bənzər xüsusiyyəti *"tez"* və ondan təkrar yolu ilə yaranan "*tez-tez"* sözləri barədə də demək olar. Burada da "*tez"* və "*tez-tez"* sözləri arasında oxşar və fərqli semantik-funksional fərq vardır. "*Tez"* sözü nitq hissəsi olaraq "1.dərhal, gecikmədən, gecikdirmədən, ələstü, az zaman ərzində, sürətlə, cəld", 2.qabaq, əvvəl" mənalarını bildirir [Azərbaycan dilinin izahlı lüğəti, 2006, IV c. s.279]. *"Tez-tez"* sözü isə "1.hər anda, ara vermədən, aralarından çox keçmədən; 2.həmişə, daim, 3.sürətli, sürətlə" [Azərbaycan dilinin izahlı lüğəti, IV c. s.280] mənalarında işlədilir. Göründüyü kimi, *"bir"* sözünün cütlüyü ilə "tez" sözünün cütlüyü arasında semantik-funksional əhatə dairəsində fərq vardır. Hər şeydən əvvəl deyək ki, "İzahlı lüğət"də bu sözlərin şərhində vahid prinsip gözlənməmişdir; belə ki, "*bir"* sözündən bəhs edərkən onun nitq hissəsi kimi bölgüsü verilir; say və ya ədat kimi malik olduğu mənalar göstərilir, "*tez*" sözü izah edilərkən bu sözün birbaşa ifadə etdiyi semantika verilir. Fərq ondadır ki, bir nitq hissəsi daxilində müxtəlif məzmunlar ehtiva oluna bilir.

Qeyd edək ki, hər hansı sözün sintaktik zəmində ifadə etdiyi məzmun bir sıra hallarda əlaqəyə girdiyi sözün semantikasından bilavasitə asılı olur."*Bir"* sözünün semantik-funksional sahəsi qoşa sözə nisbətən genişdirsə, "*tez*" sözündə, əksinə, qoşa sözün semantik-funksional sahəsi *"tez"* sözünün özündən genişdir. Burada həmin sözlərin əlaqələndiyi əsas komponentin semantikası əhəmiyyətli rol oynayır. *"Gəl*" sözü ilə əlaqələnən "*tez"* sözü *"sürətli gəl", "qayıt*" sözü ilə əlaqələndikdə zaman anlamı bildirir: *tez qayıt.* Bu sözlərin qoşalığından yaranan mürəkkəb sözlərin müvafiq sözlərlə işlənməsində başqa mənzərəni görmək mümkündür. *"Tez-tez gəl"* ifadəsində "*tez-tez*" zaman anlayışına malikdir, halbuki "*tez-tez qayıt"* ifadəsi yoxdur. Sözsüz ki, bu hal hər iki vahidin başqa-başqa leksik vahid olması ilə bağlıdır; hər hansı bir sözün və ondan yaranan qoşa sözün eyni sözlə əlaqələnməsi mümkün olmaya bilər. Bu vəziyyət bir daha onu göstərir ki, həmin vahidlər müxtəlif leksik vahidlərdir.

Diçiliyimizdə mübahisəli məqamlardan biri düzəltmə sözlərlə bağlıdır. Məlumdur ki, dil inkişaf etdikcə onun həm də qrammatik strukturunda müəyyən dəyişikliklər baş verir; bu dəyişiklik isə, bir qayda olaraq, təkamül kimi özünü göstərir. Bu təkamüldə sözlərin quruluşunda dəyişmələr baş verə bilir ki, bunlardan biri düzəltmə sözlərin sadələşməsi, yaxud mürəkkəb sözlərin zaman-zaman düzəltmə və ya sadə sözə çevrilməsidir. Bu prosesin əsasında müvafiq düzəltmə və ya mürəkkəb sözün komponentlərindən birinin arxaikləşməsi, yəni müasir dilimizdə işləkliyini itirməsidir. Bu hal həm əsil türk mənşəli sözlərdə, həm də alınma, yaxud hibrid sözlərdə özünü göstərə bilir. "*Dağıntı, kargüzar, sərkar, nikbin, qızar"* və s. sözlər bu qəbildəndir. Bəzən isə kök və şəkilçi morfem aydın görünsə də, sözləri tərkibə görə təhlildə problem meydana çıxır.

Bu cəhətdən maraqlı sözlərdən biri *"araşdırmaq*" sözüdür. Bu sözdən bəhs edən dilçilər "*ara*"(maq) feilinin kök, -"*şdır*" hissəsinin şəkilçi (*-ışdır*-ın qısaldılmış forması) olduğunu göstərirlər. Demək lazımdır ki, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə "*aramaq, aranmaq, araşdırmaq, araşdırılmaq, araşmaq"* sözləri qeydə alınmışdır ki, bunların hamısının kökü "*ara*"maq feilidir. Kök və şəkilçi münasibətinə gəldikdə son üç sözün eyni yolla yarandığını müşahidə edirik. Sadəcə, "*araşmaq"* sözü digər iki söz üçün əsas hesab edilsə də, bu sözün müasir dilimizdə işlək olmadığı məlum olur. Buna baxmayaraq, "Azərbaycan dilinin izahlı lüğəti"ndə bu söz qeydə alınmış və belə izah verilmişdir: *"Araşmaq*"—f, məh. Axtarmaq, aramaq, soraqlamaq, xəbər tutmaq. *Kimin kim eşq bağlar əl-ayağın, dəxi açılmaz; Bu müşkül mənini kimsədən Qövsi araşıbdır* (Qovsi Təbrizi) [Azərbaycan dilinin izahlı lüğəti, 2006, I c. s.130]. Göründüyü kimi, verilən nümunə XVIII əsr şairi Qövsi Təbrizidəndir, yəni müasir dövrə aidliyi göstərilmir. Maraqlıdır ki, bu nümunə olduğu kimi "Türk mənşəli arxaizmlər lüğəti"ndə də qeydə alınmışdır. [Türk mənşəli arxaizmlər lüğəti, 2023, s.80-81].

AMEA-nın nəşr etdiyi "Müasir Azərbaycan dili" kitabının II cildində yazılır: *"-ı// -şdır//-şdir //-şdur //-şdür.* Bunlar *-ş* əlamətinin sonrakı morfoloji inkişafıdır. Bu qoşa şəkilçi feilə sürəklilik, yaxud davamlılıq mənası verməklə intensivlik, təkidlilik də ifadə edir. Bu şəkilçili sözlərdə işin qüvvətlənməsi də ifadə edilir. *Aralaşdırmaq, qapışdırmaq, dartışdırmaq, didişdirmək, əlləşdirmək"* [Müasir Azərbaycan dili, 1980, s.214-215].

Nümunələrdən göründüyü kimi, həmin sözlərin üçündə *-ş və -dır, -dir* komponentləri ayrıca leksik şəkilçi vəziyyətindədir: *ara+la+ş+dır, dart+ış+dır, did+iş+dir, əl+lə+ş+dir.* Ona görə də bunlarda *-şdır, -şdir* vahid şəkilçisi ayırmaq mümkün deyil. Lakin *"araşdırmaq"* sözündə vəziyyət başqa cürdür; tarixən və bəzi dialektlərdə *"araşmaq"* sözü olsa da, müasir ədəbi dilimiz üçün mövcud olmayan *"araş"* komponentini *"araşdır"* sözü üçün əsas götürə bilmərik. Məlumdur ki, dilimizdə tarixən iki və ya üç şəkilçinin birləşib bir şəkilçiyə çevrilməsi faktları vardır: *-ca+-(s)ı+(n)a, -an+da, -ar+kən(ikən)* və s. *"Araşdır"* sözündə də eyni hadisəni müşahidə edirik: *ara+şdır.* Bu fakt *"suvar"* sözündə *-var, qaranlıq*" sözündə *-nlıq* kimi morfem ayırmağa bənzəyir.

Bu şəkilçilərin iştirakı ilə meydana gələn sözlərdən biri də *"əzişdir"* (mək) feilidir. Bu sözün kökü *"əz*" (mək) feilidir, -iş komponentindən sonra *-dır* yenə feil düzəldən, daha dəqiqi, təsirsiz feili təsirli feilə çevirən şəkilçidir. Qeyd edək ki, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə "*əzmək, əzilmək, əzdirmək, əziş-büzüş, əzişdirmək, əzişdirilmək"* sözləri qeydə alınmışdır [Azərbaycan dilinin orfoqrafiya lüğəti^2021? s/216], amma *"əzişmək*" sözü yoxdur. Bu isə o deməkdir ki, müasir dilimizdə "*əz"* feili və bu feildən leksik şəkilçilər vasitəsilə yaranan müvafiq sözlər işləkdir.

Diqqətçəkən fakt ondan ibarətdir ki, lüğətdə "*əziş-büzüş",* habelə bu mürəkkəb sözün ikinci komponenti "*büzüş"mək* sözləri qeydə alınsa da, "*əziş"mək* feili istər, tarixi, istər müasir olsun, hələlik lüğətlərdə qeydə alınmır. Yalnız

morfologiyaya dair bəzi əsərlərdə müəyyən qəbil sözlər cərgəsində "*əzişmək"* sözü də verilir: "Dilimizdə *sovuşmaq, sürüşmək, girişmək, danışmaq, çalışmaq, qızışmaq, əzişmək, dolaşmaq, üzüşmək, yapışmaq, alışmaq* tipli sözlər qarşılıqlı feillərə zahirən oxşasa da, bu növə aid deyil. [Hümmətova:2019, s.189]

Qeyd edək ki, bu sözlərin hamısının sadə quruluşlu olması şəksizdir, amma digərlərindən fərqli "*əzişmək"* sözü müasir dilimizdə işlək deyil. "*Əziş-büzüş"* mürəkkəb sözü isə isim kimi qəbul edilməlidir və birinci komponentinin formaca ikinci komponentə bənzədilməsi nəticəsində yaradıldığını iddia etmək olmaz. Bu arada "*alış-veriş"* mürəkkəb sözü ilə müqayisə aparmaq olar. Berlə ki, izahlı lüğətlərdə bu mürəkkəb sözlə yanaşı, "*alış*" və "*veriş"* sözləri isim kimi qeydə alınsa da, "*veriş"* sözünə aid nümunə verilməmişdir; səbəbi bu sözün müstəqil isim kimi dilimizdə işlədilməməsidir. Müasir dilimizdə "*alıb-vermək, alışıb-verişmək"* vahidləri işləkdir, amma son sözün komponentləri—"*alışıb"* və "*verişib"* sözləri müstəqil sözlər kimi işlək deyil.

Söz yaradıcılığı və sözün tərkibi problemı ilə bağlı məsələlərdən biri müəyyən sözlərdə kök və şəkilçinin düzgün müəyyənləşdirilə bilməməsidir. Bəzən sözün tərkibinin düzgün müəyyənləşdirilməməsi söz yaradıcılığı üsulunun da düzgünlüyünə xələl gətirir. Bu hal həm düzəltmə, həm mürəkkəb sözlərdə özünü göstərir. Dilimizdə feilə *-ı*[4] şəkilçisi artırmaqla isim *(qorx--qorxu, çək—çəki, yaz—yazı, ölç—ölçü* və s.), -ıl[4] şəkilçisi ilə feil (məchul, qayıdış, şəxssiz növ) yuaranır. Bəzi sözlərdə şəkilçi ardıcıllığı düzgün müəyyənləşmədikdə söz yaradıcılığı qanunu da pozulmuş olur. Bu hal məhz kök və şəkilçi münasibətlərinin düzgün müəyyənləşdirilmədikdə, kök--əsas—düzəltmə söz ardıcıllığının səhv şərhində qrammatik-semantik qeyri-dəqiqlik zamanı özünü göstərir. Bir neçə sözə baxaq: *qorxulu, yazılı, çəkili, tikili.* Bəzi əsərlərdə sifət düzəldən *-ülü* şəkilçisi qeyd edilir və "*örtülü"* sözü misal verilir. [Müasir Azərbaycan dili:1980, s.112; Xəlilov:2007, s.103]. Bəzi dilçilik ədəbiyyatında isə haqlı olaraq bu söz kökü feil olan, lakin fieldən düzəlmiş isimdən yaranan sifət kimi təqdim olunur: *qorx+u+lu.* **[**Hüseynzadə:2007, s.129**].** Deməli, burada iki leksik şəkilçi istifadə edilmişdir; birincisi isim düzəldən (*-u*), ikincisi sifət düzəldən (*-lu*).

"Tikili" sözünün yaranma yolu "*qorxulu"* sözündən fərqli olması aydındır; belə ki, əvvəla, dilimizdə *"tiki*" sözü yoxdur, "*tik"* sözündən -il şəkilçisi vasitəsilə feilin məchul növündə olan "tikil"(mək) sözü yaranmışdır. Bundan sonra -i şəkilçisi ilə isim (bina) və sifət (tikilmiş mənasında) yaranır. Burada da iki leksik şəkilçi vardır; birinci feil düzəldən (-il), isim və ya sifət düzəldən (-i).

"Yazılı" sözü birmənalı olaraq sifətdir. Bu sözün yaranma yolunu iki cür düşünmək olar: 1.*yaz+ı+lı; 2.yaz+ıl+ı.* İlk baxışda burada qeyri-adi bir hal görünmür, lakin sözün semantik və funksional mövqeyi ikinci yolu imkansız edir. Bu sözün istənilən funksiyada semantik mənası "*yazılmaq"* yox, məhz "*yazı"* sözü ilə bağlıdır. Ona görə də bu sözün yaranması birtinci yoldur, yəni tərkibi "yaz+ -ı (isim düzəldən)+ -lı (sifət düzəldən) şəkilçidən ibarətdir.

Dilimizdə tərkib hissələrinə ayırmaqda çətinlik yaradan sözlərdən bir qismi də *-at, -ət* sonluqlu leksik vahidlərdir. Bu cərgədə *"növbətçi, növbəti, gözətçi, gözətləmək"* sözlərini qeyd etmək olar. Kökündə "*gözət*" duran sözləri nəzərdən keçirək. "Orfoqrafiya lüğəti"ndə hətta "*gözətsiz, gözətmək"* sözləri də qeydə alınmışsır, amma -ət şəkilçisi açıq görünən bu sözlərin kökü olan "*gözət"* sözü müasir dilimizdə, hətta dialektlərimizdə qeydə alınmır. Düzdür, lüğətdə "*gözətmək"* feili qeydə alınmışdır, lakin verilmiş sözlərin kökü şəkilçilər əsasında feil yox, isim olmalıdır, çünki *-çi, -siz, -lə* şəkilçiləri məhz adlara artırılır. Deməli, bu sözlərin kökündə "*gözət"* ismi durur.

Tarixən dilimizdə "*gözətmək"* feili çox fəal olmuşdir [Tanrıverdi:2010, s.276]. "Kitabi-Dədə Qorqud"da, "Dastani-Əhməd Harami"də, Q.Burhanəddində, Nəsimidə, M.Füzulidə, M.P.Vaqifdə və başqalarında bu feilin müxtəlif növ və şəkillərində, təsdiq və inkarda geniş şəkildə istifadə edilmişdir. Bu mənbələrdə *"gözətmək"* 1.axtarmaq, aramaq, 2.gözləmək, 3.qorumaq, nəzarət etmək, güdmək, 4.göz altına almaq, diqqət yetirmək, 5.nişan almaq mənasında işlədilmişdir. [Tanrıverdi:2010, s.53-55]. Göründüyü kimi, beş məna növündən yalnız biri gözləmək mənasındadır və qeyd edilən şairlərin hamısının dilində həmin mənada işlənmişdir. Maraqlıdır ki, qədim abidələrin leksikası ilə bağlı bir neçə lüğət olsa da, bunların yalnız birində "*közətmək"* sözü qeydə alınmış və gözləmək, saxlamaq, mühafizə etmək anlamını bildirməsi göstərilmişdir. [Rəcəbli: 2001, s.110]. Q.Kazımov da bu sözün abidələrin dilində həmin mənalarda işlədildiyini qeyd etmişdir [Kazımov:2018, s.134]."İzahlı lüğət"də bu söz məhz gözləmək mənasında təqdim olunmuşdur və nümunələr də M.Füzulidən və N. Kişvəridən verilmişdir. Nəticə ondan ibarətdir ki, müasir dilimizdə olan və yuxarıda verilən sözlər *göz+ət+çi* kimi şərh olunmalı və tarixi aspekt nəzərə alınmalıdır.

İkinci qrupa aid olanlar *"növbə"* kökü əsasında yaranan "*növbətçi, növbəti"* sözləridir. Bu sözləri kökü (növbə) müasir dilimizdə fəal işləkliyə malikdir, halbuki tarixi əsərlərə aid lüğətlərdə bu söz diqqəti cəlb etmir. "*Növbətçi, növbəti"* sözlərinin əsası olan *"növbət"* nə tarixi, nə də müasir mənbələrdə qeydə alınmışdır, yalnız Neftçala rayon şivələrində işlədilməsi barədə məlumat vardır: Q.Qənbərovanın "Azərbaycan dilinin Neftçala rayon şivələri" adlı əsərində yazılır: "Nobat II (is.)—şirniyyat adı.—Səlyanda əvvəldən nobat pişiriblər. (Mir.) Nobatı (is.)—növbə. Heyvanı örüşə aparmaq növbəsi..—*Saba nobat bizzədi, tez duracam*.(Həs.) [Qənbərova:20202, s.199]. Əvvəla, birinci söz ədəbi dilimizdəki "*nabat"* sözüdür. İkinci söz isə *"nabatı"* yox, "*nabat*" şəklindədir. Verilən cümlədə də "*nobat"* şəklində getmişdir. Görünür, "*nobatı"* texniki səhvdir. "*Nobat"* sözü "növbət" sözünün şivə fonetik variantıdır, "*növbət"* isə "*növbə"* sözünün cəm formasıdır. Aydın olur: *"növbə"* sözündən "*növbət"*, sonradan "*növbət"* sözündən *"növbətçi*" yaranmışdır. Dildə heç bir söz izsiz yox olub getmir, sadəcə, geniş araşdırma nəticəsində hər şey yerinə oturmuş olur. "*Növbəti"* sözü də bu şəkildə "*növbət"* sözünə *-i* şəkilçisi artırmaqla meydana çıxmışdır. Hər iki sözün müasir səviyyədə təhlili isə belə olmalıdır: *növbə+t+çi; növbə+t+i.*

Dilimizdə kök və şəkilçiyə ayrılmaqda problem olan və bu əsasda sözün yaranması yolu ilə bağlı mübahisə doğuran faktlardan biri də "*düşərgə"* ismidir. Məlumdur ki, bu ismin kökü "*düş*" feilidir, yəni bir yerə düşüb orada oturmaq, qalmaq, yaşamaq. Bu kökdən sonra hansı şəkilçinin olması barədəki fikir mübahisəlidir. Belə ki, söz yaradıcılığından bəhs edən qrammatik təlimə görə, burada bir leksik şəkilçi---*ərgə* leksik şəkilçisi vardır.

Dilimizdə fieldən isim düzəldən -gə şəkilçisi vardır: *süpürgə, döngə*. Buna görə də -ərgə şəkilçisini müasir dilimiz üçün ayrıca şəkilçi kimi alınması düz deyil, çünki şəkilçi dedikdə hər hansı sözə müasir dildə qoşularaq yeni söz yaradan morfem nəzərdə tutulur. Bu məqalədə elə əsas məqsəd sözün tərkibi və yaranması yolu arasında olan fərqli məqamları qeyd etməkdir.

Dilimizdə "*düşərgə"* sözü ilə eyni tərkib probleminə malik "*dönərgə*" sözü vardır. Bu sözün kökündə "*dön*" feili durur. Müasir ədəbi dilimizdə bu fieldən yaranan müstəqil "*dönər*"mək sözü yoxdur (yemək növü "*dönər*" istisnadır.) və buna görə də "Orfoqrafiya lüğəti"ndə qeydə alınmamışdır. Bu sözlə bağlı bəzi mənbələrdə kiçik məlumatlar vardır. Əslində *"dönərgə"* sözünün kökündə "*dön"* feilində olması məlum olsa da, onun izahında fərqli fikirlər vardır.

B.Əhmədov "Etimologiya lüğəti" əsərində *"dönərgə"* (gecələmə) sözünün yaranma yolundan bəhs edərkən yazır: "*Gecələmə"* anlamını verən sözdür: qonaq gələndə deyirlər ki, *dönərgə yerin yoxdursa, bizdə gecələyə bilərsən*. Sözün əsli *"gecə"* mənasını verən *tün* kəlməsi ilə bağlıdır. *Tün-ə-ər-gə* qəlibi üzrə əmələ gəlib: ardıcıllıq belədir: *tün* (gecə), *tünə* (*tün* ismindən əmələ gəlmiş feil), *tünər* (yenə də feil), *tünərgə* (isim). *-ərgə* şəkilçisi indi *-əlgə* kimi işlədilir (*görəlgə, kirəlgə* və s.). [Əhmədov:2015, s.87].

"*Dönərgə"* sözünün mənası ilə bağlı da fərqli fikirlər vardır; Əksər hallarda bu söz bəxt, tale, qismət mənasında şərh olunur Məsələn: *Yoxsa dönərgəm dönər. bütün Çalmalıda görk olaram*. [Bax: Quliyeva:2019, s.73]. Bədii əsərlərin dilində hətta *"dönərgələnmək*" sözündən istifadə edilir. Bu söz "uğursuz gəlmək, taleyi, bəxti dönmək" mənasındadır ki, bu da *"dönərgəsi dönmək*" ifadəsi ilə eyni mənaya maliksir. Məsələn: *Büsbütün "kefingəldi" ovqatında başlamış bir səhərin ilk dərsi, ilk saatı dönərgələnmişdi.* [Əhmədov:2015, s.85; Quliyeva: 2019, s.73].

Digər mənbələrdə də, xüsusən Qərb dialektinə aid mənbələrdə bu söz *"bəxt, tale"* kimi təqdim olunur. "*Dönərgə"* sözünün Qərbi Azərbaycanın Çənbərək, Vedi, Zəngibasar *şivələrində "bəxt, tale"* mənasında işlədildiyini qeyd edilir. Müəllif *"dönərgəsi dönmək"* ifadəsinin də şərhini verərək, onun 1.taleyi pis olmaq, bəxti gətirməmək, 2.işi düz gətirməmək bildirdiyini qeyd etmişdir. [Azərbaycan dilinin orfoqrafiya lüğəti: 2021, s.135].

M.Adilov "*dönərgəsi dönmək"* ifadəsinin M.Şəhriyarın dilində işlədilməsindən bəhs edir, nümunə verir, lakin "*dönərgə*" mənasını ayrıca bəhs etmədən *"dönərgəsi dönmək*" ifadəsinin "qədim dövrlərə aid olan daxili obyektli feil" olduğunu açıqlayır. [Adilov: 2019, s.279].

M.Şəhriyarın dilində "*dönərgə"* sözü "üzüdönük, adamı yarıyolda qoyub qaçan adam" mənasında işlənmişdir:

Mənim atam süfrəli bir kişiydi,
El əlindən tutmaq onun işiydi,
Gözəllərin axıra qalmışıydı,
Ondan sonra dönərgələr dönüblər,
Məhəbbətin çıraqları sönüblər. [Rəcəbli: 2001, s.162]

"Dönərgə" sözü həm ümumi, həm də termin funksiyasında işlədildiyi faktı da vardır; belə ki, "*dönərgə"* dedikdə nəyinsə başqa bir şeyə dönməsi (çevrilməsi), xüsusən insanın müxtəlif varlıqlara—heyvana, quşa və s. çevrilməsi nəzərdə tutulur. Bu baxımdan *"dönərgə obrazlar, dönərgə təbiətli varlıq", "dönərgə funksiyası*" ifadələri mifologiyaya dair əsərlərdə geniş işləkliyə malikdir. Bu isə bilavasitə "*dönərgə"* sözünün mifologiyaya aid elmi ədəbiyyatda termin səviyyəsində olduğunu göstərir.

"Dönərgə" sözü ilə bağlı uyğun fikirlərdən biri də inancla, adət-ənənə ilə bağlıdır. F.Cəlilov qeyd edir ki, "21 dekabr gecənin uzanması və gündüzün qısalmasıdır. Bu, ildə 4 dəfə olur. Hər fəsildə və ayın 21-də baş verir. Buna *dönərgə* və yaxyd *çərxi-fələk* də deyirlər. Bunun sadəcə astroloji anlamı var və təbiət hadisəsidir. [https://bizim.media/az/cemiyyet/51788/ https:// bizim. media].

Əslində bu tip rituallar, inancların kökü çox qədimlərə gedir. Belə ki, qədim kurqanlardan tapılan qabların üzərində olan, sonralar Orxon-Yenisey abidələrinin əlifbası içərisinə daxil edilən (svastika) işarəsi də tədqiqatçılar tərəfindən *"dönərgə"* adlandırılır: "Prototürk çağından Azərbaycanda bəlli olan dönərgə işarəsi (svastika) Ulduzla bağlı tale anlamında işlənir. "*Ulduzu söndü"* deyiminin paraleli kimi işlənən "*dönərgəsi döndü*" deyimi qədim inancla bağlıdır. ...Bu dönərgə sonralar runik yazıda "*az*" hecası ilə oxunan *"z"* hərfinə çevrilmişdir. [Türk mənşəli arxaizmlər lüğəti: 2023]. Deməli, bugün bəzi regionlarımızda işlədilən "*dönərgə*" sözünün bəxt, tale anlamının kökü daha qədimdən, qədim inancdan gəlir.

Bu sözlərdə problem *-ər* morfemi ilə bağlıdır, çünki bu morfemlə formalaşan və yuxarıda qeyd edilən söz ya dilimizdə müşahidə edilmədi, ya da ancasq tarixi və ya dialektoloji əsərlərdə müşahidə edilir. Əslində bu şəkilçi müasir dilimizdə ən məhsuldar leksik və ya qrammatik şəkilçidir. Bu şəkilçinin tarixinə nəzər yetirdikdə onun ən qədim çağlardan həm qrammatik, həm leksik şəkilçi kimi fəaliyyət göstərdiyini görürük. Lakin *-ar, -ər* qrammatik şəkilçisinin qrammatiklikdən tədricən leksikliyə – leksik-semantik funksiya yerinə yetirməyə keçidi son dövrlərdə də görmək olur. Bu şəkilçi həm adlardan, həm feillərdən isim, sifət, feil yaradıcılığında çox fəaldır. "*Ağarmaq, otarmaq, açar, Yetər, Sevər, Yaşar"* və s. yeni adların bu şəkilçi ilə yaranması məhz son zamanlara aiddir. Ona görə də yuxarıda təhlil edilən sözlərdəki -ər morfemi barədə ayrıca bəhs etmək lazımdır.

Bu tip sözlərin bir qismi bugün dilimizdə işləkdirsə, digər qismində həmin şəkilçi ilə formalaşmış söz müstəqil işləkliyini itirmiş, başqa şəkilçilərlə qovuşmuş şəkildə qalmışdır. Çağdaş dilimizdə olan *-arkən, -araq* feili bağlama şəkilçiləri belə

formalaşmışdır. Nəzərə alaq ki, *-araq* şəkilçisi ilə formalaşmış "*qaçaraq, çaparaq*" feili bağlamaları vurğunun dəyişməsi nəticəsində artıq diferensial şəkildə leksik vahidə də – zərfə də çevrilmişdir. Bu baxımdan söz yaradıcılığı "leksikologiyaya aid olub, lüğət tərkibinin inkişafını təmin və tənzim edən vasitə və üsulların məcmusudur... Lakin onun qrammatik (morfoloji) aspekti var."[Seyidov: 200, s.27].

Düzdür, söz yaradıcılığının əsasında morfoloji yox, leksik-semantik anlayış durur, lakin, bir tərəfdən, ayrı-ayrı şəkilçilər müvafiq nitq hissələri yaradır, digər tərəfdən, müəyyən sintaktik zəmində sintaktik formada olan söz leksik vahidə çevrilir. S.Vurğunun "*Uçarda turacdır, qaçarda çeyran"* misrasındakı *"uçar"* sözü lüğətlərdə müstəqil söz—sifət kimi qeydə alınsa da, *"qaçar"* sözü müstəqil leksik vahid olaraq təqdim olunmur. *"Uçar"* sözü barədə verilən izahla da tam razılaşmaq olmaz; belə ki, S.Vurğundan verilən misrada "*uçar"* və "*qaçar*" sözləri *"uçan*" feili sifətinin qarşılığı olan "*uçan, qaçan"* feili sifətləri ilə qarşılaşdırılaraq sifət olaraq təqdim olunur. "*Uçar*" sözü ilə bağlı verilən "*uçar mayelər, uçar qaz*" kimi termin birləşmələrində bu fikir özünü doğruldur—"*axar su, baxar kor"* kimi ifadələrdə olduğu kimi. Lakin seir parçasında verilən "*uşar, qaçar*" sözlərini feili sifətlə (*uçan, qaçan*) izah etymək düzgün deyil, çünki burada həmin sözlər isim mövqeyində məsdərlə izah oluna bilər: *Uçmaqda turacdır, qaçmaqda ceyran.* Qeyd edək ki, "Orfoqrafiya lüğəti"ndə "*qaçar"* sözü verilsə də, onun müasir dilimizdə müstəqil söz kimi işlədilməsinə dair nümunəyə rast gəlmədik. Deməli, "*qaçar*" sözü "*uçar"* sözünə uyğunlaşdırılaraq yaradılmışdır. Bu baxımdan "*düşərgə, dönərgə"* sözlərinin yaranmasında tarixən iki şəkilçi iştirak etmişdir.

"*Çimərlik"* sözü barədə də eyni fikri söyləmək olar. "*Qaçar, uçar"* sözləri isim məqamında məsdər xüsusiyyətinə malik olduğu kimi, *"çimərlik*" sözündə də eyni xüsusiyyət var; *çimər—çimmək üçün yer. "Çimər"* sözündən isə avtomatik olaraq *"çimərcək"* sözü yaranmışdır ki, bu da *çimərlik geyimi* kimi izah olunsa da, bu, *çimmək üçün geyim* ifadəsi daha məntiqlidir.

Sonu -ər şəkilçisi ilə bitən və daha sonra digər leksik şəkilçi qəbul edən sözlər seriyası dilimizdə çoxdur; bunların içərisində *"gəzərgi*" sözü də vardır. Bu sözün mənası "başqa yerlərdə gəzərək işləyən, gəzərək özünə iş tapan, səyyar" deməkdir. Sözsüz ki, bu sözdə "*gəz*" kök hissədir, amma *-ərgi* hissəsini vahid şəkilçi adlandırmaq olmaz. Müasir dilimizdə "*gəzər*" müstəqil leksik vahidi olmasa da, "*gəzər"* formasında morfoloji forma vardır. Buradakı *-ər* komponenti qrammatik — qeyri-qəti gələcək zamanın şəkilçisi olsa da, digər sözlərdə olduğu kimi, leksikləşməyə meyil üzrə *-gi* leksik şəkilçisini də qəbul edərək yeni mənalı sözü formalaşdırmışdır.

Qeyd etmək lazımdır ki, dilimizdə bu qəbildən xeyli söz vardır ki, onların tarixi aspektdə və dilin inkişaf istiqamətlərini nəzərə almaqla təhlil etmək mümkündür, lakin orta məktəb şagirdləri üçün bu sözlərin sistemli şəkildə təhlilə cəlb edilməsi məqbul deyil, lakin istər ali məktəb proqramı üçün, istər elmi ictimaiyyət üçün bu tip sözlərin dəqiq tərkibinin şərhi lazımdır. Ona görə ki, *-ərlik, -ərgə, -şdır* və s. bu tipli şəkilçinin qeydə alınması üçün onların bir neçə sözdə,

həqiqətən, birbaşa yeni söz yaradıcılığı təsbit olunmalıdır. Fikrimizcə, bunlara müasir dilçilik mövqeyində sözün tərkib komponenti demək olsa da, onlar ayrılıqda bir şəkilçi hüsab edilə bilməz.

ƏDƏBİYYAT

1. Adilov M. Niyə belə deyirik.—Əsərləri IV c., Bakı: "Elm və təhsil", 432
2. Azərbaycan dilinin izahlı lüğəti.4 c-də. Ic.Bakı: "Şərq-Qərb",2006,744 s.
3. Azərbaycan dilinin izahlı lüğəti.4c-də. IVc.Bakı:"Şərq-Qərb",2006, 712 s.
4. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı:"Elm" nəşriyyatı, 2021, 756 s.
5. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası (dərs vəsaiti). Bakı: "Elm və təhsil", 2011, 440 s.
6. Əhmədov B. Etimologiya lüğəti. (araşdırmalar, mülahizələr). Bakı: "Altun kitab". 2015, 287 s.
7. Əhmədov S. Yasaq edilmiş oyun. –Azərbaycan yurnalı, 1987, № 5
8. Göyüş B. Mum. Ulduz, 1991, №6
9. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. Bakı: "Nurlan", 2007, 354 s.
10. Hümmətova R. Ana dili – II. Dərs vəsaiti. Bakı, 2019. 340 s.
11. Hüseynzadə M. Müasir Azərbaycan dfili. (fonetika, morfologiya), ----- Azərbaycan Dövlət Tədris-pedaqoji Ədəbiyyatı Nəşriyyatı, Bakı: 1963, 276 s.
12. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə. "Maarif" məşriyyatı, Bakı: 1973, 358 s.
13. Hüseynzadə M. Müasir Azərbaycan dili.III hissə. Morfologiya. "Şərq-Qərb" nəşriyyatı, Bakı: 2007, 280 s.
14. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. "Elm və təhsil" nəşriyyatı, Bakı: 2010, 400 s., s.320
15. Kazımov Q. Azərbaycan dilinin qrammatikası. Bakı: "Elm və təhsil", 2023, 1016 s.
16. Kazımov Q. Azərbaycan dilində ikihecalı sadə feillər. Bakı: "Avropa" nəşriyyatı, 2018, 192 s., s.134
17. Qənbərova Q. Azərbaycan dilinin Neftçala rayon şivələri. Bakı: "Savad", 2020, 296 s.
18. Quliyeva K. Bədii ədəbiyyatda dialektizmlər. Bakı: "Elm və təhsil", 2019, 288 s.
18. Müasir Azərbaycan dili. II hissə. Morfologiya. Bakı: "Elm", 1980, 512 s.
20. Müasir Azərbaycan dilinin morfologiyası. APİ-nin nəşriyyatı, Bakı: 1961, 190 s.
21. Rəcəbli Ə. Qədim türkcə-azərbaycanca lüğət. Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı. 2001, 192s,
22. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Bakı: Bakı Universiteti nəşriyyatı. 2000, 403 s.

23. Şəhriyar M. “Yalan dünya”. Bakı: Azərbaycan Ensiklоprdiyası Nəşriyyatı, 1993, 496 s.

24. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: “Elm və təhsil”, 458 s.

25. Türk mənşəli arxaizmlər lüğəti . (XIII-XVIII əsrlər Azərbaycan yazılı abidələri əsasında). I cild. Bakı, “Elm və təhsil”, 2023—468 s.

26. Türk mənşəli arxaizmlər lüğəti . (XIII-XVIII əsrlər Azərbaycan yazılı abidələri əsasında). II cild. Bakı, “Elm və təhsil”, 2023, 464 s.

27.https://bizim.media/az/cemiyyet/51788/https://bizim.media /az/cemiyyet/ 51788/qedim-turklerin-qara-tun-bayrami-azerbaycanda-anlami-nedir-firudin-celilovun-cavabi/

28. .https://tarihvearkeoloji.blogspot.com/2016/10/runik-yazlar. html

WORD COMPOSITION AND WORD CREATION

SUMMARY

As society develops and man becomes more aware of the secrets of the world, the vocabulary of the language is enriched as a natural process. However, word creation, whether morphological or syntactically, is characterized not only by the creation of new words, but also by the formation of emotional and sensory shades in the word in this way. Thus, if a completely new word is created in some of the words formed by the repetition of simple or compound words, in other parts the previous meaning remains, and the difference in shades is manifested.

The creation of new words with suffixes, which is one of the main methods of word creation, has an ancient history and has taken a complex form in the process of the historical development of the language. There are problematic issues related to the method and composition of the creation of a number of words in our modern language. One of the main issues is the difficulty in separating a number of words with a compound structure into root and suffix components—the misunderstanding. The main reason for this is the inaccuracy in dividing the word into its constituent components after creating a new word with a certain suffix and then adding a new lexical suffix. Here, the main reason is that the word formed after the first suffix of the root is not functional in our language today. There are controversial opinions in dividing such words as “to investigate, to crush, on duty, quard” etc. into constituent components.

Especially, the problem arising from the addition of various types of lexical suffixes after the verb adopts the suffix -er is noteworthy. This problem appears in the words “camp, roundbout, beach”, etc.

The analysis of these cases should be through the comparison of historical and modern facts; that is, it is not correct to separate suffixes such as -ergə, -erlik in these words, because the suffix should be fully motivated and directly participate in the creation of other words.

Key words: *word creation, word formation, complex word, grammatical suffix, lexicalization.*

SOSTAVLENİE SLOV İ SLOVESNOE TVORÇESTİVO

РЕЗЮМЕ

По мере развития общества и повышения осведомленности человека о тайнах мира, словарный запас языка обогащается естественным образом. Однако словообразование, как морфологическое, так и синтаксическое, характеризуется не только созданием новых слов, но и формированием таким образом эмоциональных и чувственных оттенков в слове. Так, если в некоторых словах, образованных путем повторения простых или сложных слов, создается совершенно новое слово, то в других частях сохраняется прежнее значение, и проявляется различие в оттенках.

Создание новых слов с суффиксами, являющееся одним из основных методов словообразования, имеет древнюю историю и приобрело сложную форму в процессе исторического развития языка. Существуют проблемные вопросы, связанные со способом и составом образования ряда слов в нашем современном языке. Одна из главных проблем – трудность разделения ряда слов со сложной структурой на корневую и суффиксную составляющие – недоразумение. Основная причина этого — неточность в разделении слова на составляющие его части после образования нового слова с определённым суффиксом и последующего добавления нового лексического суффикса. В данном случае главная причина заключается в том, что слово, образованное после первого суффикса корня, не является функциональным в современном языке. Существуют противоречивые мнения относительно разделения таких слов, как «расследовать, раздавить, дежурный, сторож» и т. д., на составляющие части.

Особенно примечательна проблема, возникающая при добавлении различных типов лексических суффиксов после того, как глагол принимает суффикс -er. Эта проблема встречается в словах «лагер, круговая развязка, пляж» и др.

Анализ этих случаев должен проводиться путем сравнения исторических и современных фактов; То есть, некорректно разделять суффиксы, такие как -ergə, -erlik, в этих словах, поскольку суффикс должен быть полностью мотивированным и непосредственно участвовать в образовании других слов.

Ключевые слова: *словесная креативность, правильное слово, слово, написанное чернилами, грамматический формализм, лексикификация.*